# VISLA 7

## 13-20/08/2022

**BAKIDA III SEVİL BEYNƏLXALQ QADIN SƏNƏDLİ FİLM FESTİVALI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN VII "VİSLA" POLŞA FİLMLƏRİNİN FESTİVALI**

Landmark Hotel Baku
Nizami 90A

Salaam Cinema Baku
Süleyman Rüstəm 10

www.festiwalwisla.pl

MALİYYƏLƏŞMƏ

POLSKI INSTYTUT SZTUKI FILMOWEJ

TƏŞKİLATÇILAR

WSPIERAM! FUNDACJA

TƏRƏFDAŞLAR

SEVİL BEYNƏLXALQ QADIN SƏNƏDLİ FİLM FESTİVALI

# BAKIDA III SEVİL BEYNƏLXALQ QADIN SƏNƏDLİ FİLM FESTİVALI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN VII “VİSLA” POLŞA FİLMLƏRİNİN FESTİVALI

---

**18/08 18:30/ Landmark Hotel Baku**
**MƏNƏ MARİANNA DEYİN,** sənədli film, rejissor. Karolina Beliavska, Polşa, 2015, 75 dəq, 12+

**18/08 21:30/ Salaam Cinema Baku**
**MƏCBURİ PROQRAM,** sənədli film, rejissor. Eva Koçanska, Polşa, 2018, 72 dəq., 12+

**19/08 18:15/ Landmark Hotel Baku**
**KƏNDLİLƏR,** sənədli film, rejissor. Karol Palka, Polşa, 2018, 72 dəq., 12+

**19/08 19:45/ Landmark Hotel Baku**
**JANNA DARK,** rejissor. Aleksandr Şamalek, sənədli film, Polşa, 2022, 30 dəq., 16+

---

## MƏNƏ MARİANNA DEYİN



Marianna qırx yaşlı cazibədar qadındır. Amma sevdiyi bütün insanlardan uzaqlaşır. O, valideynlərini məhkəməyə verir, çünki doğum haqqında şəhadətnaməsindəki qeydi yalnız bu yolla dəyişə bilər. Bütün bunlar cinsiyyətini dəyişdirmək üçündür. Sən demə, həyat heç kimin gözləmədiyi bir ssenari yazıb, azadlığın və xəyal etdiyi qadınlığının qiyməti isə çox yüksəkdir.

## MƏCBURİ PROQRAM



10 yaşlı Yulia Polniuk fiqurlu konkisürmə idmanı ilə məşğul olur, lakin onun idmanda uğur qazanaraq ailənin gözləntilərini qarşılamaq üçün getdikcə daha az vaxtı qalır. Avromeydan inqilabından sonra Polniuk ailəsi Ukraynadan Polşaya köçür. İndi isə onlar Varşavada dil bilmədən, yaxşı iş və pulları olmadan tamamilə yeni həyata başlayırlar. Yulianın anası Mariannanın (37) sadəcə bir məqsədi var: övladların həyatlarını yaxşı təmin etmək. Bu il Yulianın Polşa Fiqurlu Konkisürmə Çempionatında iştirak etməyə şansı yaranır. Bu, ona şöhrət, uğur gətirə bilər və bəlkə də bütün ailəyə Polşa vətəndaşlığını almağa kömək edər. Görəsən, çiyinlərində belə bir ağır yük daşıyan Yuliya qanadlarını aça biləcəkmi?

## KƏNDLİLƏR



Danuşia və onun qızı Başia dünyanın sonunda təbiətin ritminə və qanunlarına uyğun şəkildə, heyvanlar və ölülərin ruhları arasında yaşayırlar. Onların anklavı sülh və təhlükəsizlik hissini bəxş edir, lakin eləcə də başqa insanlarla ünsiyyət yaratmaq həsrətini yaşadır. Bukolika – başqa tərzdə yaşan insanlar haqqında bir hekayədir, maraq və yaxınlaşma cəhdini doğuran həssas müşahidədir.

## JANNA DARK



Daha yaxşı həyat axtarışında olan gənc polyak Aneta yoldaşı və dörd uşağı ilə Fransaya köçür. İllərlə davam edən mübarizə və çətinliklərin öhdəsindən gələrək o, artıq yetkin qadına çevrilir. Elə bu zaman o, öz həyatını dəyişdirə biləcək qeyri-adi unikal iş fürsəti tapır. O, bu şansdan istifadə edəcək, sevgidə xoşbəxtlik tapacaq və övladlarının gələcəyini təmin edə biləcək mi?